# Kəbəyə dönən evlərə doğru



*(Əvvəli ötən saylarımızda)*

Nəhayət, ata yurdum Yuxarı Qiyaməddinli kəndinə qayıtdıq. Qeyd edim ki, bu tərəkəmə elinin igid oğulları - Yuxarı Qiyaməddinli kəndinin övladları olduqca vətənpərvərdirlər. Bu kənd 1-ci Qarabağ müharibəsində çoxsaylı şəhid vermiş, 1993-cü ilin iyul ayının 12-də Ağdam şəhərini mühasirəyə salmaq üçün işğal edilərək yarı hissəsi yandırılsa da bu kəndin igid oğulları tərəfindən işğaldan azad edilmiş və müvəqqəti də olsa, Ağdamın mühasirə planının pozulmasına səbəb olmuşdur. Bu kənd Ağdam rayonu mənfur erməni cəlladları tərəfindən işğal edildikdən sonra işğalda olan Ağdam rayonunun Yusifcanlı kəndi ilə 28 ilə yaxın müddətdə düşmənlərlə təmas xəttində mərdliklə mübarizə aparmış, azyaşlılar da daxil olmaqla kəndin xeyli sakini namərd düşmənin gülləsinə tuş gəlmiş və ya onların basdırdığı minaya düşmüşlər. Minaya düşənlərdən biri də mina yarasının yerindən elə erməni kimi mənfur olan xərçəng xəstəliyinə tutularaq keçən il dünyasını dəyişmiş, Alı Mustafayev adına Yuxarı Qiyaməddinli kənd orta məktəbinin müəllimi, əmim oğluƏliyev Səyyaf Nüsrət oğlu olmuşdur. Mən kitabımda onun haqqında yazdığım "Mən dünyada rahat yaşayammadım" adlı şeirə də yer ayırmışam. Yuxarı Qiyaməddinli kəndinin çoxsaylı igid oğlanları, o cümlədən də kitabımda barələrinə məqalə yer almış əmim oğlanları Əliyev Elşad Hümbət oğlu və Piriyev Rəhman Novruzxan oğlu Vətən müharibəsində mərdliklə iştirak etmiş, kəndin igid övladlarından 3 nəfər şəhid olmuş, bir nəfər isə itkin düşmüşdür.

Kəndə qayıtdıqda ilk ziyarət etdiyimiz yer şəhid Sahil Məmmədovunevi oldu. Şəhid Sahil Məmmədovun atası Ədalət əmiylə görüşümüz, şəhidimiz haqqında ətraflı söhbətimiz oldu. Qeyd edim ki, şəhidimizə həsr etdiyim "Savaşlardan alnı açıq, üzü ağ çıxan Qəhrəman"adlı məqaləmin dərc olunduğu "Kredo" qəzetinin sayı Ədalət əmiyə hələ kitabım çap olunmazdan əvvəl çatmışdı. Bu dəfə eyni adda məqaləmin və şəhidimiz haqqında hazırladığım vikipediya səhifəsininyer aldığı kitabı Ədalət əmiyə təqdim etdim. Ədalət əmi mənə uğurlar arzuladı. Məni səmimi qəbul etdiyinə görə ona çoxlu təşəkkürlərimi bildirdim.

Qeyd edim ki, şəhid Sahil Ədalət oğlu Məmmədov 12 iyul 1996-cı ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olmuşdur. Orta təhsilini aldıqdan sonra hərbi xidmət qulluqçusu olmuşdur. Gizirlik kursunu bitirdikdən sonra gizir kimi xidmətini davam etdirmişdir. Nümunəvi xidmətinə görə Sahil dəfələrlə fəxri fərman və təşəkkürnamələrlə təltif edilmişdir. Vətən müharibəsində Cəbrayılın və Qubadlının azad olunması uğrunda gedən döyüşlərdə son damla qanına qədər döyüşmüşdür. O, ilk dəfə qulağından ağır xəsarət aldığına görə bir müddət eşitmə qabiliyyətini itirmiş və xəstəxanaya yerləşdirilmişdir. Atası Ədalət əminin dediklərindən: "Onu xəstəxanada sakitləşdirmək mümkün deyildi. Hətta sakitləşdirici iynə vurmaq istəyəndə, necə deyərlər, dünyanı dağıdırdı. Rahatlaşa, rahatlıq tapa bilmirdi, döyüş meydanında olub zalımın dərsini vermək istəyirdi.O, deyirdi: "Özümü pis hiss edirəm. Başımı yastığa qoyanda qapının ardından sanki, şəhidlərimiz keçirmiş kimi hiss edirəm. Rahatlaşa bilmirəm. Məni sakitləşdirməyin. Mən döyüş meydanına qayıdıb daxilimdə olan qisası düşmənin üzərinə boşaltmaq istəyirəm, mənə sakitləşdirici iynə lazım deyil, mən düşmən üzərinə vulkan kimi püskürmək istəyirəm". O, bir neçə gün xəstəxanada qaldıqdan sonra öz təkidi və tələbi ilə yenidən döyüşə yollandı. 25 oktyabr 2020-ci ildə Qubadlının Zəfəri çalınan gün Sahilgilin yoldaşları video çəkdilər. Videoda onlar qürurla Zəfər yolunda addımlayırdılar. Lakin sonra onların olduğu yerə mənfur düşmən artilleriya zərbəsiendirdi... Həmin videoda əks olunan Sahil elə həmin dəqiqələrdə də şəhidlik zirvəsinə ucaldı... Sahilindoğulduğu kənddə döyüş gedə-gedə dəfn edilməsi mümkünsüz olduğundan o, Ağcabədi şəhərində Şəhidlər Xiyabanında torpağa tapşırıldı. Sahilin mobil telefonu üstündə yox idi. Qırx mərasimi ərəfəsində paltarında aşkar elədilər ki, nəsə var. Elə bildilər, düşməndən alınan qənimətdir. Demə, Sahilin itən telefonu imiş"... Bu da bir igidimizin həyat tarixi. Qısa və olduqca mənalı, əbədiyaşar bir həyat...

"Möhtəşəm zəfərin nişanəsi" adlı kitabımda şəhid Sahil Məmmədovun döyüş yoldaşlarından olan şəhid baş leytenant Əfşan Hüseynov haqqında da məlumat var.

Şəhadətindən sonra Sahil Məmmədov "Vətən uğrunda", "Cəbrayılın" və "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Sonda, səmimi söhbətə görə Ədalət əmiyə təşəkkürümü bildirdim və onunla bir xatirə şəkili çəkdirdim.

Sonda,səmimi söhbətə görə Ədalət əmiyə təşəkkürümü bildirdim və onunla bir xatirə şəkili çəkdirdim.

Növbəti şəhid dayanacağım kəndin, demək olar ki, lap ucqarında, necə deyərlər, əlçatmaz, ünyetməz yerində olsa da digər şəhidlərimiz kimi qəlbimin, ürəyimin özəyində idi. Bu yer Birinci Qarabağ müharibəsinin, Aprel döyüşlərinin, İkinci Qarabağ müharibəsinin, hər atəşkəs pozuntusunun acısını yaşamış bir yer idi. Bu torpaqda şəhidlərin qanı var. Nərgiztəpəninyaxınlığında yerləşən bu ev top komandiri olan şəhidimiz Azər Dilafət oğlu Əliyevin evi idi.

Evdə şəhidimizin otağında onun atası Dilafət əmiylə görüşüb söhbət etdik. Şəhidimizə həsr etdiyim "Azərbaycan Azəri" adlı şeirimin və şəhidimiz haqqında hazırladığım vikipediya səhifəsinin yer aldığı "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabımıƏdalət əmiyə təqdim etdim. Qeyd edim ki eyni adlı şeirim də "Kredo" qəzetində dərc olunaraq şəhidimizin ailəsinə əvvəllər tərəfimdən çatdırılmışdı. Dilafət əmi də digər şəhid ailələri kimi mənə təşəkkürünü bildirdi. Mən, ümumiyyətlə, bu ev də daxil olmaqla, bütün o nurlu ocaqlarda dedim ki, bu, kağız borcu, kitab borcu, qələm ya da mürəkkəb borcu deyil. Bu, şəhid borcudur! Bu, can borcudur! Biz yeniyetmələr şəhidlərimizə borcluyuq! Biz uşaqlar, yeniyetmələr şəhidlərimizdən örnək götürməliyik, hər əməlimizdə, hər işimizdə zərrə-zərrə onların borclarını ödəməyə çalışmalıyıq və çalışacağıq.

Şəhid Azər qardaşımızın qızı Nəzrin və Şəhadətindən sonra doğulan oğlu Əli ilə də görüşdüm. Allah onları saxlasın və Azərin nurlu torpağı sanı onlara ömür versin!

Qeyd edim ki, şəhid Azər Dilafət oğlu Əliyev 1 noyabr 1997-ci ildə (bəzi mənbələrdə 6 yanvar 1999-cu il) Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olmuşdur. Əslən Şuşa rayonunun Çaykənd kəndindəndir. Orta təhsilini aldıqdan sonra 2016-2018-ci illərdə Qazaxda həqiqi hərbi xidmət keçmişdir. 2019-cu ildə Xocavənd rayonunda, Nərgiztəpədə müddətdən artıq xidmətə yazılmışdır və xidmətini top komandiri, artilleriyaçı kimi yerinə yetirmişdir. Vətən müharibəsində Nərgiztəpədə mərdliklə vuruşan, canını vətəninə sevə-sevə fəda edən Azər Əliyev 15 oktyabrda elə orada başından yaralanmış və aylarla komada qalmışdır. Hələ komada olarkən ona "Cəsur döyüşçü" medalı verilmiş, 29 yanvar 2021-ci ildə komada şəhidliyə yüksələn Azər Şəhadətindən sonra "Vətən uğrunda", "Xocavəndin" və "Ağdamınazad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidimizin atası Dilafət əmi və qızı Nəzrinlə xatirə şəkili çəkdirdikdən sonra həmin günün son şəhid-itkin ünvanı olan dayanacağımıza üz tutduq. Vətən müharibəsində 42 gün aslanlar kimi hər əzaba, ağrıya sinəsini sipər edib dözən və qəhrəmanlıqla döyüşən, müqəddəs zəfərə 2 gün, Zəfər Gününə 1 gün qalmış itkin düşən qəhrəmanımız Asim Mehdiyevin evində olduq. Asimgillə Azərgilin evləri biri-birinə qonşuluqda yerləşir. Orada Asimin nur simalı anasıyla və digər ailə üzvləri ilə görüşdük. Mən özümdə dözüm tapıb kitabımı onun anasına təqdim etdim. Asimin anası və ailə üzvləri kitabı vərəqlədilər, təşəkkürlərini bildirdilər. Mən onlara minnətdarlığımı bildirdim, səbir və dözüm arzuladım. Asimin atası Yaqub əmiylə söhbətimiz mənim üçün çox maraqlı oldu. Onun üzüntüsü başa düşülən idi. Ailənin yeganə oğul övladı itkin idi.Biz kədərin nə qədər sıxıcı olduğunu anlasaq da Murov dağı kimi məğrur dayanmağa çalışan Yaqubəmiyə yenədə təskinlik verməyə çalışdıq. Hardasa bir ümid işığının olduğunu belə çatdırdıq. "Biz inanırıq ki, o, bir gün qayıda bilər. Nə qədər illər keçsə belə, qayıda bilər. .Onda bizim ellərin "Asimnamə" adlanan dastanı onun yanında deyiləcək. Dastana dönən igid, qəhrəman Asimin elə öz yanında. İnşəAllah!" Kaş elə də olaydı...

Qəhrəmanımız Asim Yaqub oğlu Mehdiyev 1 yanvar 2001-ci ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində evin yeganə oğulövladı olaraq dünyaya gəlmişdir. Orta məktəbi bitirdikdən sonra Asim sərhədçi beretini başına qoyub canından çox sevdiyi Vətənin başlandığı yeri - sərhədimizi qoruyub. Xidmətini nümunəvi yerinə yetirdiyinə görə bir ulduz alıb və komandirlərinin unudulmazı kimi yaddaşda elə qalıb. Hərbi xidmətdən qayıdan kimi evdə hamıyla görüşdükdən sonra dərhal müddətdən artıq hərbi xidmətə yazılıb. Təlim kurslarını tam bitirməməsinə baxmayaraq öz istəyi və arzusu ilə Vətən müharibəsinə yollanmışdır Asimimiz. O, Füzuli-Xocavənd uğrunda 42 gün qəhrəmanlıqla döyüşmüş, 7 noyabr 2020-ci ildə Xocavənd istiqamətində, təəssüf ki, itkin düşmüşdür. Ondan bizə, ailəsinə yadigar qalan şəkilləri və qoyub getdiyi şəxsi əşyalarıdır. Onlar bizə Asiminəmanətidir. Biz onları göz bəbəyimiz kimi qoruyacağıq, qorumalıyıq. Asim gələnə qədər biz onu unutmayacağıq və unutdurmayacağıq. Çünki O, neçə illər keçməsinə baxmayaraq, qayıtmağa layiqdir və yüksək səviyyədə, xalqımız tərəfindən qəbul olunub qarşılanmağa layiqdir. Allah Yaqub əmiyə və onun ailəsinə ümid, səbir və qədərincə dözüm versin. İnanıram ki, verir və verəcək. Asim gələnə qədər...

Mən beləcə həmin günlərdə şəhid, qazi və itkin düşmüş Azərbaycan igidlərinin, ərlərinin evlərini ziyarət etdim. Mən bu evlərə, bu müqəddəs məkanlara təkcə şəhid-qazi-itkin evi deyib keçmək istəməzdim. O evlər qurulduğu yerin Kəbələridir, ziyarətgahlarıdır. O evdə yaşayan igidlər dastana döndüyü kimi yaşadıqları ev ziyarətgaha dönüb və dönməlidir. Şəhid Əmrah ziyarətgahı, Şəhid Elsevər ziyarətgahı, Şəhid Ceyhun ziyarətgahı, Şəhid Sahil ziyarətgahı, Şəhid Azər ziyarətgahı və itkin Asim ziyarətgahı kimi... Allah şəhidlərimizə rəhmət eləsin! Qazilərimizə can sağlığı versin, itkinlərimizin, müşküllərimizin əlinə ailələrinin əli dəysin!.. Mən onların xatirəsini qəlbimdə və qələmimdə həmişə əziz tutacağam. Biz heç bir vaxt onları unutmayacağıq! Çünki onlar bizim qəlbimizə, beynimizə silinməz qızıl hərflərlə yazılıblar. Və nə vaxt ki oradan çıxacaqlar, onda, ruhumuzla çıxacaqlar. Bizdən sonra nəsillərimiz eyni qaydada onları beyinlərində, qəlblərində, ruhlarında müqəddəslər kimi yaşadacaqlar. Biz onları unutmayacağıq! Qalsaq, canımızla, ölsək, ruhumuzla unutmayacağıq! Bu da ilk müqəddəs səfərin --şəhid evlərini, onların Kəbələrini ziyarətin indilik sonu.

P.S.: Bu görüşümü təşkil etdiyinə görə başda atam Nəsib Əliyev olmaqla əziyyəti olan hər kəsə dərin təşəkkürümü bildirirəm.



***SEVİNDİK NƏSİBOĞLU***
***8-ci sinif şagirdi, şair-publisist,***
***AJB-nin üzvü***
***22.01.2022***